

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

27 fevral 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 8 (3720)

# Strateji tərəfdaşlığa doğru

## Azərbaycan-Pakistan əlaqələri güclənir

**Azərbaycan müstəqilliyini bərpa edəndən sonra onu dəstəkləyən ilk dövlətlərdən biri Pakistan olub. Rəsmi Bakı və İslamabad ötən 33 il ərzində qarşılıqlı münasibətlərdə strateji tərəfdaş kimi davranıblar.**



Hər iki dövlət beynəlxalq aləmdə ortaq maraqlara əsaslanan siyasət yürüdüb. Uzun illər boyu bu münasibətlər siyasi, iqtisadi, hərbi, mədəni-humanitar və digər sahələrdə, parlamentlər səviyyəsində inkişaf edərək daha da dərinləşib.

İki ölkə arasında mövcud olan dərin dostluq və qardaşlıq münasibətlərinin bariz nümunəsi olaraq fevralın 24-də Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Bakıya rəsmi dövlət səfəri edib. Prezident İlham Əliyevin və qonağı Məhəmməd Şahbaz Şərifin iştirakı ilə sənədlərin imzalanması və mübadiləsi mərasimi olub.

Qeyd edək ki, ötən il iyulun 11-də dövlət başçısı İlham Əliyevin İslam Respublikasına səfəri zamanı da bir sıra sənədlər imzalanmışdı.

Ölkələrin Xarici İşlər nazirlikləri arasında konsulluq sahəsində əməkdaşlıq haqqında tranzit ticarət sazişi, özəlləşdirmə sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumu, mineral ehtiyatlar və geologiya sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumu, 2024-2029-cu illər üzrə mədəni mübadilə Proqramı və başqa istiqamətlər üzrə sənədlər imzalanmışdı.

İkitərəfli əməkdaşlığın genişlənməsi və inkişafı məsələsi, yuxarıda qeyd etdiyimiz memorandum və sazişlərlə bağlı fevralın 24-də Prezident İlham Əliyev və Baş nazir Məhəmməd Şahbaz Şərif biznes-forumda çıxışlarında da vurğulayıblar.

Azərbaycan lideri bildirib: “Bəzən bizim daha fəal biznes təmaslarımıza mane olan məsələ planlarımız, iqtisadi gündəliyimiz, infrastruktur layihələri ilə bağlı məlumatın olmamasıdır. Həmin boşluğu doldurmaq üçün bu cür toplantılar çox vacibdir. Çünki biznes-forum çərçivəsində müxtəlif təqdimatlar keçirilir, biznes imkanları təqdim edilir, hüquqi formatlar, vergi və gömrüklə bağlı məsələlər müzakirə olunur”. İki ölkə arasında ticarət əlaqələrinin inkişaf etdirilməli olduğunu Baş nazir də etiraf edib: “Təəssüf olsun ki, bu gün ticarətimiz 14 milyon dollara bərabərdir və bu, qətiyyən bizim siyasi səviyyədə olan münasibətlərimizi əks etdirmir. Bu gün biz artıq bəyan edə bilərik ki, sərmayələri qısa bir zamanda 2 milyard dollar səviyyəsinə çatdıracağıq.”

Mütəxəssislər hesab edir ki, Azərbaycan və Pakistan arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi üçün qarşılıqlı ticarət maneələrinin aradan qaldırılması, gömrük və logistika sahəsində əməkdaşlığın dərinləşdirilməsi əsas məqsədlərdən biridir. Xüsusilə nəqliyyat və tranzit marşrutlarının genişləndirilməsi iki ölkə arasında ticarət dövriyyəsinin artmasına ciddi töhfə verə bilər. Azərbaycanın coğrafi mövqeyi, onun Avropa və Asiyanı birləşdirən mühüm nəqliyyat dəhlizlərinin üzərində yerləşməsi Pakistan üçün yeni ixrac imkanları yaradır.

Azərbaycanla Pakistan arasında hərbi sahədə də əməkdaşlıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Bu əməkdaşlığın ən son və mühüm nailiyyətlərindən biri Azərbaycanın JF-17C çoxməqsədli döyüş təyyarələrini əldə etməsidir. 2024-cü il sentyabrın 25-də Prezident İlham Əliyevə yeni təyyarələrin təqdim edilməsi Azərbaycanın müdafiə qabiliyyətinin daha da möhkəmləndirilməsi istiqamətində atılmış mühüm addımlardan biri kimi qiymətləndirilir. Bu, Azərbaycan-Pakistan hərbi əməkdaşlığının yeni mərhələyə keçdiyini və münasibətlərin strateji tərəfdaşlığa doğru yönəldiyini göstərir.

# Ehtiramla anırıq

## Dövlət başçısı faciə qurbanlarını yad edib

Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar fevralın 26-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva soyqırımı qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəni ziyarət ediblər. Dövlət başçısı Xocalı soyqırımı abidəsinin önünə əklil qoyub, faciə qurbanlarının xatirəsini ehtiramla yad edib. Birinci xanım Mehriban Əliyeva da abidənin önünə gül dəstəsi qoyub, soyqırımı qurbanlarının xatirəsinə ehtiramını bildirib.

# Qardaşlıq, müttəfiqlik

## Münasibətlər uğurla inkişaf edir

Prezident İlham Əliyev fevralın 21-də Türkiyə Böyük Millət Məclisinin deputatı, parlamentin Milli müdafiə komissiyasının sədri Hulusi Akarı qəbul edib. Söhbət zamanı ölkələrimiz arasında qardaşlıq, dostluq və strateji müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb.

# Yeni kompleks yaradılır

## Xatirələri əbədiləşdiriləcək

Prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən Xocalı şəhərində Soyqırım Memorial Kompleksi yaradılacaq. Məqsəd soyqırımının beynəlxalq səviyyədə tanıdılması, faciə qurbanlarının əziz xatirəsinin əbədiləşdirilməsidir.

# Yarışlara hazırıq

## Müasir qış-xizək mərkəzlərimiz var

Prezident İlham Əliyev fevralın 23-də Beynəlxalq Xizək və Snoubord Federasiyasının prezidenti Yoxan Eliaşı qəbul edərkən Azərbaycanda qış idman növləri üzrə beynəlxalq yarışların keçirilməsi üçün müasir qış-xizək mərkəzlərinin yaradıldığını bildirib. Ölkəmizin beynəlxalq əhəmiyyətli nüfuzlu idman yarışlarına uğurla ev sahibliyi etdiyini deyən Prezident İlham Əliyev ölkəmizin bu sahədə müasir infrastruktur baxımından geniş imkanlarının olduğunu deyib.

# Rəsmi xəbərlər

- Prezident İlham Əliyev fevralın 25-də “Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi”nə Azərbaycan Respublikasının qoşulması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.
- Ağdam şəhərində “İmarət” Tarix-Memarlıq Muzey Kompleksi yaradılır. Prezident İlham Əliyev bununla bağlı fevralın 20-də Sərəncam imzalayıb.
- Bu il Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi Bəxtiyar Mahmud oğlu Vahabzadənin 100 illik yubileyi qeyd ediləcək. Yubiley tədbirinin keçirilməsilə bağlı Prezident İlham Əliyev fevralın 21-də Sərəncam imzalayıb.
- İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti rəisinin müavini Emil Maqsud oğlu Qarayevə 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri ali xüsusi rütbəsi verilib. Prezident İlham Əliyev fevralın 21-də bununla bağlı Sərəncam imzalayıb.
- Prezident İlham Əliyevin fevralın 19 da imzaladığı Sərəncamla Ağdaş rayonunun Davudlu–Binələr–Güvəkənd–Əmirarx–Qaradeyin–Eymur–Ərəbşəki–Ağcaqovaq avtomobil yolu əsaslı təmir olunacaq.

# Xoşbəxt ölkənin vətəndaşlarıyıq

## Ərazimiz bütöv, suverenliyimiz tam, inkişafımız dinamikdir

Suverenlik müstəqil dövlətlərin mövcudluğu və tərəqqisini təmin edən başlıca prinsipdir. Bu, təkcə dövlətin hüquqi, iqtisadi-siyasi əsaslarını deyil, həm də milli kimliyini və birliyini ifadə edir.

Prezident İlham Əliyevin sərəncamı ilə ölkəmizdə bu ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi bu prinsipin həm tarixi əhəmiyyətini, həm də gələcəyə hesablanmış strateji mahiyyətini müəyyən etmək üçün yeni vəzifə və öhdəlikləri tələb kimi qarşıya qoyur.

Vətən müharibəsindəki tarixi Qələbə ilə Azərbaycanın ərazi bütövlüyü də bərpa olunmuşdu.

Artıq beşinci ildir ki, Azərbaycan Respublikası öz hakimiyyətini, Azərbaycan Konstitusiyasının müddəalarını özünün bütün ərazisi üzərində tam sərbəstliklə həyata keçirir. Azərbaycan Respublikasının qanunlarının aliliyinin, suverenliyin əbədiliyinin təmini üçün daxili işlər orqanları bu ali dəyərlərin keşiyini çəkir.

Xatırladaq ki, 1995-ci il noyabrın 12-də ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ilk dəfə müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ümumxalq səsverməsi – referendum yolu ilə qəbul edilmişdir. Konstitusiyanın hazırlanması Ümummilli Liderin şah əsəridir. Dahi rəhbər bu sənədin təkcə dövrün tarixi və siyasi reallıqlarını deyil, bütövlükdə, xalqın milli-mənəvi dəyərlərinin süzgəcindən keçərək qəbul olunmasına çalışırdı.

Azərbaycan Respublikasının Konstitusiyasının müddəalarını bərpa etmək, suveren Azərbaycanın təməlini qoymaq üçün 19 sentyabr 2023-cü ildə antiterror əməliyyatı başladı. Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusunun qarşıya qoyulmuş bütün tapşırıqları yerinə yetirməsi nəticəsində Azərbaycan dünya tərəfindən tanınmış bütün əraziləri üzərində suverenliyini təmin etdi.

Müstəqilliyinin bərpasından sonra daim təcavüz və işğala, eləcə də beynəlxalq təşkilatların təzyiqlərinə məruz qalan Azərbaycan müstəqilliyinə və ərazi bütövlüyünə tam qovuşdu. Azərbaycanın şanlı bayrağı bütün ərazilərimizdə dalğalandı.

Azərbaycanın Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müdrik siyasəti, şəhidlərimizin və qazilərimizin canı, qanı bahasına böyük Zəfər salnaməsi yazıldı.

Bu gün işğaldan azad edilmiş ərazilərdə “Böyük Qayıdış”ın gerçəkləşməsi üçün polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları asayişin və təhlükəsizliyi etibarlı təmin etməklə suverenliyimizin təməllərini möhkəmlədir, bunun üçün xidmətlərini böyük əzm və peşəkarlıqla davam etdirirlər.

Heç şübhəsiz ki, “Konstitusiya və Suverenlik İli” ərazimizin bütöv, suverenliyimizin tam, inkişafımızın dinamik olmasında mühüm mərhələ olacaq.

Çətin günün dostuyuq... 2
İnsanlığın faciəsi 3
Onları qorumaqla uğurlara yol açırıq 3
Deportasiya etnik təmizləmədir 4

## RESPUBLİKA XƏBƏRLƏRİ

### Qərbi Azərbaycanlılar tələb edir

Qərbi Azərbaycan İcması yaydığı bəyanatda Ermənistan hökumətinin sülhün və insan hüquqlarına hörmətin bərqərar olunmasında maraqlı olmadığını bildirib. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın BMT-nin iclasında Azərbaycanda hazırda məhkəmələri davam edən bir qrup müharibə cinayətkarına haqq qazandıran fikirlər səsləndirməsinə etiraz edilib. İcma etnik təmizləməyə məruz qoyduğu azərbaycanlıların Ermənistana qayıdışına şərait yaradılmasını tələb edib.

### Xocalılılar da yurdlarına dönür

Ağdamdan yola salınan növbəti köç karvanı Xocalı rayonunun Ballıca kəndinə çatıb. Doğma yurdlarına çatan ailələrə mənzillərin açarları təqdim edilib. Köç karvanı 95 nəfər olmaqla 22 ailədən ibarət olub. Bununla da Ballıcaya köçürülən ailələrin sayı 112-ə çatıb.

### Ölkəmizdə beynəlxalq yarışlar keçiriləcək

Bu il Azərbaycanda keçiriləcək III MDB Oyunlarına fəal hazırlıq işləri aparılır. Fevralın 24-də müvafiq işçi qrupunun onlayn formatında növbəti iclası olub. İclasda Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan, Özbəkistan və MDB İcraiyyə Komitəsinin nümayəndələri iştirak ediblər. Oyunlar sentyabrın 28-dən oktyabrın 8-dək Gəncədə, həmçinin Mingəçevir, Qəbələ, Şəki, Göygöl və Xankəndi şəhərlərində keçiriləcək.

### Xocalı üçün...

Dünən Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar Xankəndi şəhərində, Xocalı və Ağdərədə inzibati binaların qarşısında ucaldılan dövlət bayraqları yarıyadək endirilib. Saat 17.00-da isə Azərbaycanın bütün ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

### Füzuliyə həyat qayıdıb

Bu yaxınlarda Füzulinin Pirəhmədli və Qaraxanbəyli kəndlərinin tikintisinə başlanılacaq. Bunu Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov jurnalistlərə açıqlamasında deyib. Onun sözlərinə görə, Füzulidə işsizlik səviyyəsi 9 faizdən aşağıdır: "Bu onu göstərir ki, artıq Füzuliyə həyat qayıdıb".

### Sumqayıtda avtobus istehsal ediləcək

Bu il Sumqayıtda Çinin BYD şirkəti tərəfindən elektrik mühərrikli avtobusların istehsalı müəssisəsinin fəaliyyətə başlaması nəzərdə tutulur. İllik istehsal gücü 500 ədəd elektrik avtobusu təşkil edəcək müəssisədə ilkin mərhələdə bir istehsal xəttində 5 ədəd avtobusun yığımı həyata keçiriləcək.

### Gələn il nə qədər adam köçəcək?

Gələn il nəzərdə tutulan 5 məhəllədən 4-nə köçə start verməklə, Ağdam şəhərinə 20 mindən çox əhalinin köçürülməsi nəzərdə tutulur. Açıqlanan məlumata görə, bu il ərzində isə Ağdam şəhərinin ətrafında olan 3 kənd və Ağdam şəhərinin özünə 10 minə yaxın əhalinin köçürülməsi nəzərdə tutulub.

### Biləsuvarda profilaktik tədbir keçirilib

Biləsuvarda tütün məmulatlarından istifadə qaydalarını pozan şəxslərə qarşı profilaktik tədbir keçirilib. Polis əməkdaşları tərəfindən rayon ərazisində yerləşən obyektlərdə keçirilən tədbirlər zamanı qapalı məkanlarda siqaret çəkən, eləcə də tütün məmulatı tullantılarını ətrafa atan 26 nəfər barəsində inzibati protokol tərtib olunub.

### Qarabağda məşğulluq məsələsi

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən işəgötürənlərlə növbəti görüş keçirilib. Görüşdə azad olunan ərazilərə köçürülən və köçürülməsi nəzərdə tutulan vətəndaşların məşğulluğunun təmin olunması üçün işəgötürənlərlə görülən işlərin nəticələri, bu istiqamətdə onlarla birgə görüləcək işlər, qarşıda duran vəzifələr müzakirə olunub.

### Manata inam artır

Bu ilin yanvar ayında banklar 71 milyon manat xalis mənfəət, 122,5 milyon manat məbləğində əməliyyat mənfəəti əldə ediblər. Mərkəzi Bankın məlumatına görə, fiziki şəxslərin əmanətlərinin 66 faizi milli valyutada, 34 faizi xarici valyutadadır. Fiziki şəxslərin əmanətlərinin dollarlaşması əvvəlki ilin müvafiq dövrünə nəzərən azalıb.

# Çətin günün dostuyuq...

## Çağırışlar, görülən tədbirlər təhlükəsizliyə yönəlib

**Ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçməsi bir sıra çətinliklər yaratsa da, belə ekstremal vəziyyətləri nəzərə alan polis paytaxtda və regionlarda xidmətini elə qurdu ki, yollarda heç kim darda qalmadı, kimsə özünü köməksiz hiss etmədi.**

Öncə onu qeyd edək ki, mövcud hava şəraiti ilə əlaqədar polis əməkdaşları tərəfindən ölkə boyu şəhər və rayonlarda, həmçinin magistral yollarda gücləndirilmiş iş rejimi təşkil edilmişdi. Yaranan problemlərin aradan qaldırılması istiqamətində operativ tədbirlər görülməsi sayəsində hərəkətin təhlükəsizliyinin tam təmin edildiyini deyə bilərik.







### Vətəndaş gördü və əmin oldu ki...

Hərəkətin intensiv olduğu küçə və prospektlərdə, piyada keçidlərinə əlavə polis naryadları cəlb edilmişdi. Digər dövlət orqanları ilə birgə yollar, nişanlar qardan və buzdan təmizlənir, yerlərə qum və duz səpilirdi. Beləcə sürücü və piyadaların mənzil başına təhlükəsiz şəraitdə çatması təmin edildi. Vətəndaşlardan daxil olan müraciətlərə də çevik reaksiya verilib. Təkcə bir gecə ərzində 102 Zəng Mərkəzinə daxil olan 417 çağırış üzrə dağ və meşə, həmçinin respublika əhəmiyyətli avtomobil yollarında vətəndaşlara







polis əməkdaşları tərəfindən zəruri köməkliklər göstərilib. Bir sözlə, kəskin hava şəraitinə baxmayaraq, polis xidmətinə ara verməden, fasiləsiz olaraq vətəndaşın yanında olmağa çalışdı.

### Daimi nəzarət, minimum qəza riski

Xüsusilə dağlıq və dağətəyi rayonlarda, enişli-yoxuşlu yollarda, körpülərdə buzlaşmanın müşahidə olunması qəza riskləri yaratmışdı. İşğaldan azad olunmuş rayonlar da əsasən dağlıq ərazilər olduğuna görə bu bölgədə polis bütün gücünü səfərbər etmişdi. Dövlət Yol Polisinin əməkdaşları, eləcə də əlavə polis naryadları aidiyyəti qurumlarla birgə qarın yollarda yaratdığı fəsadların aradan qaldırılmasına, hərəkət iştirakçılarının təhlükəsiz hərəkətinin təmin olunmasına çalışırdı.

Əlverişsiz hava şəraitində DİN Baş DYPİ-nin əməkdaşları tərəfindən qışda hərəkət üçün lazimi vasitələrlə təchiz edilməyən, texniki baxımdan təhlükəli hesab olunan avtomobillər hərəkətdən kənarlaşdırıldı. Bununla da, yolda baş verə biləcək qəza riskləri minimuma endirildi. Bundan əlavə qarlı günlərdə küçə və prospektlərdə hərəkətin təhlükəsizliyi rəqəmsal nəzarətdə saxlanılırdı. Daxili İşlər Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi tərəfindən svetoforlar və onların idarəetmə qurğuları diqqətdə saxlanılmaqla yaranan problemlərin aradan qaldırılması istiqamətində yerindəcə operativ tədbirlər görüldü. Bunun üçün Mərkəzin texniki heyətinin sayı artırılmışdı. Yolların buz bağlaması səbəbindən bir sıra küçə və prospektlərdə sürət həddinin endirilməsi, bütün tablolarda "buzlu yol" işarəsinin qoyulması gözlənilməz təbiət hadisəsinə polisin çevik reaksiyasını nümayiş etdirən çoxsaylı faktlardan bir neçəsi idi.

### Polisin xidməti yenə alqışlandı

Əsas vəzifəsi ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətkarlığa qarşı mübarizə olan polisin qarlı hava şəraitində insanlara da kömək etməsi ictimaiyyət tərəfindən də yüksək qiymətləndirildi. Sosial şəbəkə istifadəçiləri (jurnalistlər, blogerlər, ictimai fəallar, siyasətçilər və s.) tərəfindən polis əməkdaşlarının fasiləsiz xidmətini, həmçinin çətin hava şəraitində hərəkət iştirakçılarına yardım etməsini əks etdirən çoxsaylı foto və videolar paylaşılıb. Onlar nümunəvi fəaliyyətə görə Daxili İşlər Nazirliyinin rəhbərliyinə, Azərbaycan Polisinə təşəkkür ediblər.

"Ədalət" qəzetinin əməkdaşı Emil Faiqoğlu yazır ki, DİN-in Əlahiddə Çevik Polis Alayının Bakının Nizami, Xətai, Suraxanı, Binəqədi rayonlarındakı bölükləri qarlı və şaxtalı havada ictimai asayişi yüksək səviyyədə təmin edib, cinayətkarlığa qarşı yüksək peşəkarlıq göstərərək öz üzərlərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetiriblər. Bununla bərabər, həm də onlar qarlı gündə çətin vəziyyətdə olan insanlara vaxtında kömək ediblər.

Amid Aliyev sosial media hesabında "Yaxşı ki, belə məqamlarda ictimai-siyasi sabitliyi qoruyan Azərbaycan Polisi yenə də yollarda insanların köməyinə çatır və eləcə də hava ilə bağlı olaraq müvafiq təhlükəsizlik addımlarının atılmasını təmin edir"-, yazıb. Vaqif Nurəddin adlı feysbuk istifadəçisi isə polis əməkdaşlarının qarlı havada piyadaların hərəkətinə kömək etməsini əks etdirən videonu bu qeydlərlə paylaşıb: "Azərbaycan polisi şərəfli inkişaf yolu keçib. Azərbaycan polisi xidməti borcunu layiqincə yerinə yetirməklə yanaşı, çətin vəziyyətdə olan insanların köməyinə çatır, onlara yardım əli uzadır, humanist davranışları ilə, həm də, milli həmrəyliyə töhfələrini verir. Var olsun polislərimiz".

Səbuhi Axundov adlı vəkil polisin gərgin fəaliyyətinə diqqət çəkib. O, yazır: "Qonşu başına su axıdır, - yığ polisə, əşyan itir, - polisə get, biri səni hədələyir, - polisə yığ, küçəyə zibil atır, - polisə yığ, maşın yolda qalır, - polis çağır, küçədə adam sürüşüb yıxılır, - polis gəlsin qaldırsın. Bu gün hər yerə polis qaçır". Əlavə edib ki, səhərdən izlədiyi xəbərlərə əsasən yalnız DİN-in Mətbuat Xidmətinin işlədiyini görüb.

Feysbuk səhifələrində Abuzər Cəfərli, Mahir Məmmədli, Rauf Qərib Alagöz, Aslan Məmmədli və digərləri də qarlı-çovğunlu günlərdə gücləndirilmiş iş rejimində çalışan yol polisinin fəaliyyətindən məmnunluq hissi ilə bəhs ediblər. Qeyd ediblər ki, ən çətin, ağır vəziyyətlərdə daim xalqın yanında olan qəhrəman polis əməkdaşlarına yalnız təşəkkür, alqış düşür!

# Müraciətlər qeydə alınır, problemlər həllini tapır

## Vətənə, dövlətə, xalqa xidmət etmək bizim şərəf borcumuzdur

Vətəndaşları narahat edən problemlərə həssaslıqla yanaşılması, qaldırılan məsələlərin diqqətlə araşdırılıb həllinə nail olunması, müraciətlərin vaxtında cavablandırılması dövlət başçısının qarşımıza qoyduğu əsas tələblərdəndir.

Vətəndaş məmnunluğu DİN-in də fəaliyyətində prioritetlərdəndir. Odur ki, paytaxtda və yerlərdə həmkarlarımız tərəfindən hər bir vətəndaşın müraciətinə hərtərəfli qayğı və həssaslıqla yanaşılır. Bütün məsələlərin qanunvericiliyə uyğun olaraq həlli istiqamətində işlər yerinə yetirilir. Bəzən fəaliyyət istiqamətlərimizə aid olmayan məsələlərlə bağlı edilən müraciətlər həllini tapması üçün aidiyyatı üzrə yönləndirilir.

Vətən müharibəsi qazisi Çingiz Qədimov etdiyi müraciətə operativ yanaşılmasına, həmçinin qazi ailələrinə, o cümlədən ona yüksək diqqət və qayğı göstərildiyinə görə DİN kollektivinə təşəkkürü əminliyin, etimadın nümunəsidir.

Bakı şəhər sakini Aysel Heydərli Nəsimi RPİ-nin fəaliyyətindən razıdır, çünki şikayətinə operativ baxıb, dəyən maddi ziyanın ödətdirilməsində kömək göstəriblər.

Sosial şəbəkə istifadəçisi Seymur Qurbanov və Bakı şəhər sakini Natavan Lazımova onlara qarşı törədilən dələduzluq faktları ilə bağlı şikayətlərinə obyektiv yanaşdıqlarına, həmçinin dəyən maddi ziyanın ödətdirilməsi təmin etdiklərinə görə Səbail Rayon Polis İdarəsinin 9-cu Polis Bölməsinin və Nəsimi RPİ-nin rəhbərliklərinə təşəkkürlərini bildirirlər.

Ağdam rayon sakini Ətlas Mehdiyeva məişət və sosial problemlərinin həlli üçün ona göstərilən maddi yardıma görə DİN rəhbərliyinə təşəkkürünü bildirir.

Sumqayıt şəhər sakini Dürdanə Hacıyeva dələduzluq faktı ilə bağlı şikayətinə obyektiv baxılaraq dəyən maddi ziyanın bir qisminin ödətdirilməsində göstərdikləri köməkliyə görə Sumqayıt ŞPİ-nin İstintaq Şöbəsinin əməkdaşlarına minnətdarlıq edir.

Vətəndaş Nazim Kərimov Azərbaycan Polisinin xidmətindən razılıq edir və müraciətinin müsbət həlli ilə bağlı Pirallahı Rayon Polis İdarəsinin rəhbərliyinə minnətdarlığını bildirir.

243 nömrəli tam orta məktəbin direktoru Mehparə Mansırova məktəbdə antinarkomaniya, kibertəhlükəsizlik və erkən nikah mövzularında keçirilən maarifləndirici tədbirə görə Pirallahı RPİ-nin əməkdaşlarına minnətdarlığını bildirir.

Sosial şəbəkə istifadəçisi Fariz Hümbətov Nərimanov Rayon Polis İdarəsinin əməkdaşlarının müraciətinə operativ baxaraq obyektiv araşdırma apardıqlarına görə razılığını ifadə edir.

# İnsanlığın faciəsi

## Qətliama rəvac verənlərin bəziləri bu gün ədalət qarşısında cavab verir

**Törədilməsindən bir qərinəyə yaxın vaxt keçsə də Xocalı faciəsi XX əsrin ən dəhşətli və ən qəddarcasına törədilmiş Xatın Sonqmi, Xirosima faciələri ilə eyni səviyyədə durur.**

Xankəndi şəhərindən 14 km şimal-şərqdə yerləşən Xocalıda 1992-ci ilin qanlı faciəsinə kimi 7 min əhali yaşayırdı. Məlum hadisələr dövründə Ermənistandan, qonşu Xankəndindən ermənilər tərəfindən didərgin salınmış xeyli azərbaycanlı və 1989-cu ildə Fərqanədən qovulmuş axısqa türkləri də burada məskunlaşmışdılar.

1992-ci il fevralın 25-də axşam saat 23:00 radələrində 366-cı alayla birlikdə ermənilər Xocalı şəhəri ətrafında döyüş mövqeyi tutmağa başladı. 50-dən artıq “Qrad” və “Alazan” tipli raketlərdən və tanklardan Xocalını iki saata qədər durmadan atəşə tutaraq təlafatlar törətdilər. 1-ci əsas zərbəni bədnam erməni mayoru Seyran Ohanyan (2-ci batalyon) vurdu. Onlar dərhal mayor Yevgeni Labovçixin rəhbərlik etdiyi 3-cü batalyonu Ballıca kəndində yerləşdirdilər. Çanaxçı kəndində yerləşdirilmiş batalyonun vəzifəsi isə arxa mövqeləri qorumaq idi. 366-cı alayın bütün texnikası Xocalı şəhərini uzaqdan güclü atəşə tutduqdan sonra düşmən üç istiqamətdən hücuma keçərək




dinc əhaliyə divan tutdu.

Şəhəri tərk edən əhali dağlara, meşələrə qaçmağa məcbur oldu. Əliyalın camaat pusquya salındı, xocalılılar əsir və girov götürüldü. Erməni zülmündən qaçanlar isə soyuqdan, şaxtadan dondu, məhv oldu…

Bu vəhşilik nəticəsində Xocalı əhalisindən 613 nəfər öldürüldü, 487 nəfər şikəst oldu, 1275 nəfər dinc sakin - qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqir və həqarətlərinə məruz qaldı. 150 nəfərin taleyi hələ də məlum deyil. Bu əsl soyqırım idi. Xocalıda öldürülmüş 613 nəfərdən 106 nəfəri qadın, 63 nəfəri uşaq, 70 nəfəri qocadır.

Xocalı faciəsində 8 ailə bütövlükdə məhv edildi, 24 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirdi. Bu bəşəri cinayətdə 56 nəfər xüsusi qəddarlıqla və amansızlıqla qətlə yetirildi. Onlar diri-diri yandırıldı, başları kəsildi, üzlərinin dərisi soyuldu, körpə uşaqların gözləri çıxarıldı, süngü ilə hamilə qadınların qarınları yarıldı. Ermənilər, hətta meyitləri də təhqir etdilər.

Qeyd edək ki, faciə ilə əlaqədar ümummilli lider Heydər Əliyev 1 mart 1994-cü ildə Fərman imzalamış, Azərbaycan Respublikasının Milli Məclisinin Qərarı ilə 26 fevral "Xocalı soyqırımı və milli matəm günü" elan olunmuşdur. 25 fevral 1997-ci ildə "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" ulu öndər tərəfindən növbəti Fərman imzalanmışdır. 2009-cu ilin fevralından isə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən “Xocalıya ədalət” kampaniyası isə ermənilərin cinayətkar əməllərinin ifşa olunmasında müstəsna rola malikdir. Bu mənada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin azərbaycanlıların soyqırımının dünyada tanıdılmasına yönəlmiş tədbirlər həyata keçirməsi dünyada yaşayan hər bir azərbaycanlı üçün əsl vətəndaşlıq nümunəsidir.

# Milli Qəhrəmanın anım günü qeyd olunub

## Tariximizə qəhrəmanlıq səhifələri yazanları unutmuruq

Anım mərasimində iştirak edən polis əməkdaşları, digər dövlət qurumlarının və ictimaiyyətin nümayəndələri əvvəlcə Azərbaycanın Milli Qəhrəmanı



Məmmədov Səfəralı Qurban oğlunun təhsil aldığı məktəbin həyətində ucaldılmış büstünün önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Çıxış edənlər Ağdam RPŞ-nin tağım komandiri polis leytenantı Səfəralı Məmmədovun həyat və döyüş yolunun hər bir Azərbaycan gənci üçün örnək olduğunu, onun əziz xatirəsinin daim ehtiramla xatırlanacağını bildiriblər.

Həmkarımız Səfəralı Məmmədov 1992-ci ilin fevral ayının 16-da Xocavənd rayonunun Qaradağlı kənd sakinlərini azğınlaşmış erməni dəstələrindən xilas edən zaman şəhidlik zirvəsinə ucalıb.

Qəhrəman polis ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülüb. Masallı şəhərindəki mərkəzi küçələrdən birinə, təhsil aldığı məktəbə onun adı verilib. Xatirəsinə həsr olunmuş “Qəhrəman polis” adlı sənədli film çəkilib.

# Tarixin bir qərinəsi...

## Xocalı faciəsində şəhid olan həmkarlarımız anılıb

Fevralın 24-də DİN Şəxsi Heyətlə İş İdarəsində Xocalı faciəsi zamanı şəhid olmuş polis əməkdaşlarının ailə üzvləri ilə görüş keçirilib. Əvvəlcə qəhrəmancasına həlak olmuş polis əməkdaşlarının, soyqırıma məruz qalmış xocalılıların, eləcə də ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olmuş həmvətənlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. İdarə rəisi polis polkovniki Elçin Məmmədli tədbiri giriş sözü ilə açaraq xalqımızın son iki əsrdə erməni millətçiləri tərəfindən dəfələrlə soyqırıma məruz qaldığını, azərbaycanlıların növbəti belə faciə ilə 33 il əvvəl Xocalıda üzləşdiyini bildirib.

Polis polkovniki E.Məmmədli ulu öndər Heydər Əliyevin ali hakimiyyətə qayıdışından sonra bu məsələyə prinsipial şəkildə ya-



naşıldığını, məhz onun qətiyyəti sayəsində soydaşlarımıza qarşı qəddarcasına törədilmiş dəhşətli qətliama obyektiv hüquqi-siyasi qiymət verildiyini diqqətə çatdırıb.

Qeyd olunub ki, ölkə Prezidenti cənab İlham Əliyevin başımıza gətirilənlərin dünyanın diqqətinə çatdırılması istiqamətindəki fəaliyyəti öz bəhrəsini verib. Bu gün xarici ölkələrdəki diasporumuzla birgə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başladılmış "Xocalıya ədalət!" kampaniyası çərçivəsində mütəmadi şəkildə həyata keçirilən tədbirlər, geniş təbliğat əsl həqiqətlərin üzə çıxmasında mühüm rol oynayır. Məhz görülən işlərin nəticəsində özlərini beynəlxalq ictimaiyyətə məzlum, türklər tərəfindən guya soyqırıma məruz qalmış əzabkeş xalq kimi göstərməyə çalışan erməni millətçilərinin, lobbisinin və havadarlarının səyləri puç olub, yalan, böhtan və saxtakarlıq üzərində qurulmuş təbliğatları iflasa uğrayıb.

Tədbirdə 44 günlük Vətən savaşında düşməni məğlub etmələ və lokal xarakterli antiterror tədbirlərindən sonra təkcə xocalıların deyil, bütün şəhidlərimizin qisasının alındığı da xüsusi vurğulanıb.

Sonra polis polkovniki E.Məmmədli daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun adından qəhrəman şəhərin müdafiəsində şəhid olmuş polis əməkdaşlarının ailə üzvlərinə bir daha başsağlığı verib, problemləri, qayğıları ilə maraqlanıb və onlara maddi yardım təqdim edib. Göstərilən diqqət və qayğıya görə şəhid ailələri ölkə və DİN rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

# İrandan gələn “sovqat”

## Narkoşəbəkə üzvləri ifşa olundu

Daxili İşlər Nazirliyi Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən külli miqdarda narkotiklərin ölkəyə qeyri-leqal yollarla gətirildiyi və satışının təşkil edildiyi barədə əməliyyat məlumatı daxil olub. Sabunçu və Nizami rayonları ərazisində həyata keçirilən növbəti xüsusi tədbir nəticəsində narkoşəbəkənin əsas üzvləri-əvvəllər məhkum edilmiş 40 yaşlı Alim Xəlilov və 33 yaşlı Əfqan Dünyamalıyev tutulublar. Onların üzərinə və avtomobilə baxış keçirilən zaman 72 kiloqram tərkibi psixotrop maddələrlə zənginləşdirilmiş marixuana, tiryək və psixotrop maddə metamfetamin aşkarlanaraq götürülüb. Araşdırmalarla müəyyən edilib ki, Alim Xəlilov və Əfqan Dünyamalıyev narkotiklərin qanunsuz dövriyyəsini həyata keçirən şəbəkənin əsas üzvlərindən olublar.

Həmin şəxslər ifadələrində narkotik vasitələri şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşı vasitəsilə ayrı-ayrı ünvanlara çatdırmaq üçün əldə etdiklərini bildiriblər.

Faktla bağlı cinayət işi başlanılıb, onlar barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Narkoşəbəkənin digər üzvlərinin də aşkarlanaraq cinayət məsuliyyətinə cəlb olunmaları istiqamətində əməliyyatlar davam etdirilir.

# Onları qorumaqla uğurlara yol açırıq

## Mübarizəmizin qətiyyətini artıran maarifləndirmə tədbirləri davam edir

Nəsimi Rayon Polis İdarəsində "Konstitusiya və Suverenlik İli" çərçivəsində rayon ərazisində yerləşən ali təhsil müəssisələrinin tələbələri ilə "Suveren ölkədə narkotiksiz cəmiyyət" və "Suverenliyimizin sağlam gələcəyi: Keçmişdən bu günə"



mövzularında tədbir keçirilib. Rayon Polis İdarəsinin rəisi polis polkovniki Vüqar Ağayev mövzularla bağlı çıxış edərək gəncləri dövlətçilik tariximizi dərindən öyrənməyə çağırıb. Tədbirdə narkomaniyanın yaratdığı fəsadlardan və kibercinayətkarlığa qarşı mübarizə tədbirlərindən də bəhs olunub.

Yasamal rayonundakı 167 nömrəli tam orta məktəbdə də “Narkomaniya ümumbəşəri bəladır”, “Yol hərəkəti qaydalarına məktəblilər tərəfindən riayət edilməsinin vəziyyəti” və “Erkən nikah” mövzularında keçirilən maarifləndirici görüşdə Rayon Polis İdarəsinin rəisi polis polkovniki Mirnemət Mirbabayev narkomaniyanın yaratdığı təhlükələrdən, erkən nikahın səbəb olduğu problemlərdən, bu istiqamətdə görülən qətiyyətli mübarizə tədbirlərindən bəhs edib. Tədbir zamanı şagirdlərə yollarda quraşdırılan yol nişanları, işıqforlar və piyada keçidləri ilə bağlı zəruri məlumatlar da verilib.

Göyçay Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Bığır kənd 3 saylı orta məktəbdə keçirilən tədbir də narkomaniya, onun törətdiyi fəsadlar və bu sahədə mübarizəyə həsr olunub. RPŞ-nin rəisi, polis polkovniki Müqalib Abdıyev mövzu ilə əlaqəli məktəbliləri məlumatlandırıb, onları maraqlandıran sualları cavablandırıb və ölkəmizdə gənclərimizin savadlı, vətənpərvər ruhda böyümələri, eləcə də sağlam inkişaf etmələri üçün hərtərəfli şəraitin yaradıldığını diqqətə çatdırıb.

Mingəçevir Şəhər Polis Şöbəsinin təşkilatçılığı ilə şəhər 3 saylı orta məktəbdə keçirilən tədbirdə çıxış edən polis şöbəsinin rəis müavini polis polkovniki Rüfət Zeynalov “ağ ölüm”ün cəmiyyətdə yaratdığı fəsadlar barədə ətraflı məlumat verib, gənc nəslin sağlam həyatı üçün mühüm amillərdən birinin də narkomaniya ilə mübarizə və onun profilaktikası olduğunu deyib.

Lerik Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Mastail kənd tam orta məktəbində



narkomaniya və erkən nikahlarla mübarizə mövzusunda keçirilən maarifləndirici görüşdə RPŞ-nin rəis müavini polis polkovnik-leytenantı Anar Şıxəliyev isə sözügedən problemin həllinə xidmət edən mühüm addımlardan biri kimi preventiv tədbirlərin görülməsinə, o cümlədən maarifləndirmə işinə xüsusi önəm verilməsinin vacibliyinə diqqət çəkib.

# Əməliyyat tədbirləri ilə…

## Narkotiklərlə əlaqədar 61 fakt aşkarlanıb

Nəsimi Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən əvvəllər məhkum olunmuş 32 yaşlı Ərşad Nağıyev saxlanılıb. Onun üzərindən 2 kiloqramdan artıq tərkibi psixotrop maddələrlə zənginləşdirilmiş marixuana və həşiş aşkar edilərək götürülüb. Saxlanılan şəxs ifadəsində narkotikləri sosial şəbəkədə tanış olduğu İran vətəndaşı vasitəsilə əldə etdiyini və satışını həyata keçirmək niyyətində olduğunu bildirib. İdarə əməkdaşları tərəfindən cari ilin əvvəlindən narkotik vasitələrin qanunsuz dövriyyəsi və satışı ilə əlaqədar ümumilikdə 61 fakt aşkarlanıb. Qanunsuz dövriyyədən 20 kiloqram narkotik vasitə və psixotrop maddə götürülüb. Saxlanılanlardan 15-nin rayon ərazisindəki ayrı-ayrı yerlərdə narkotiklərin satışını təşkil etdikləri də müəyyən edilib.

Faktlarla bağlı araşdırmalar aparılır. Polis əməkdaşları tərəfindən narkotiklərə qarşı mübarizə tədbirləri qətiyyətlə davam etdirilir.

# Keçmiş məhkum saxlanıldı

## Barəsində həbs qətimkan tədbiri seçilib

Ağdaş Rayon Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri tədbirlərlə narkotik vasitələrin satışını təşkil edən, əvvəllər də dəfələrlə məhkum olunmuş Nurlan Aqdamifar saxlanılıb. Şəki regional qrupumuzdan bildirilib ki, ondan 300 qram marixuana və rayon ərazisindəki meşəlikdə gizlətdiyi 1 kiloqram 450 qram heroin aşkar olunub. Saxlanılan şəxs narkotik vasitələri pul qarşılığında paytaxtdan Ağdaşa gətirdiyini və burada satışını planlaşdırdığını bildirib. Araşdırmalarla onun bir neçə gün əvvəl mikroavtobusdan akkumulyator oğurladığı da müəyyən edilib.

# Media müsabiqəsi keçirilir

## Müsabiqənin təşəbbüskarı Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasıdır

Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasının təşəbbüsü ilə Birlik ölkələrinin dövlət və ictimai qurumları ilə medianın qarşılıqlı fəaliyyətinin gücləndirilməsi, hüquq-mühafizə orqanlarında xidmətin təşviqi və MDB üzvü olan dövlətlərin daxili işlər orqanları əməkdaşlarının nüfuzunun artırılması məqsədi ilə 2025-ci il üçün müsabiqə elan edilir.

Müsabiqədə MDB-yə üzv olan ölkələrin polis və mülki əməkdaşları ilə bərabər 18 yaşından yuxarı olan digər vətəndaşlar da iştirak edə bilərlər.

İştirakçılar müsabiqənin şərtləri və qaydalarına dair ətraflı məlumatla Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin rəsmi internet saytında və Mütəşəkkil cinayətkarlıqla və cinayətkarlığın digər təhlükəli növləri ilə mübarizə üzrə Əlaqələndirmə Bürosunun (MCMƏB) rəsmi internet saytının müvafiq bölməsinə (https://bkbop-cis.ru/galereya/mediakonkurs/) keçid etməklə tanış ola bilərlər. Müsabiqəyə foto və media işləri üzrə təqdim edilən nominasiyalar aşağıdakılardır.

1. **"Qələbə günü"**
2. **"Doğma diyarın gözəlliyi"**
3. **"Bizim növbəmiz"**
4. **"Postda"**

İşlər rəqəmsal formatda təqdim edilməlidir.

Müsabiqə hər il iki mərhələdə keçirilir.

Müsabiqənin birinci mərhələsi 2025-ci ilin yanvarın 10-dan iyulun 10-dək keçirilir. Bura iştirak üçün ərizələrin göndərilməsi, işlərin qəbulu və seçilməsi daxildir.

İkinci mərhələ 11 iyul - 31 iyul 2025-ci il tarixlərini əhatə edir. Bura müsabiqə komitəsi tərəfindən işlərin qiymətləndirilməsi daxildir.

Müsabiqədə iştirak etmək üçün iştirakçılar ərizələri doldururlar.

Ərizə hər bir iş üçün rus dilində doldurulur və müəllif tərəfindən imzalanır. Ərizədəki bütün sahələrin doldurulması tələb olunur.

# Deportasiya etnik təmizləmədir

## Tarixi Azərbaycan torpaqlarında qurulan Ermənistanın ilk hədəfi məhz bu idi

Rusların Azərbaycanı işğalından sonra azərbaycanlıların indiki Ermənistandan etnik təmizlənməsi və deportasiyası daha geniş vüsət aldı. Bunun əsas səbəbi həm də regionun və ölkənin milli tərkibinin dəyişdirilməsi idi. Çünki bütün tarixi faktlarda bu yerlərdə azərbaycanlıların yaşadığı qeyd olunurdu.

Azərbaycanlıların Ermənistandan (Qərbi Azərbaycandan) deportasiyasına və köçürülməsinə hələ XVIII əsrdən başlanıb. Qərbi Azərbaycandan azərbaycanlıların, ümumiyyətlə müsəlmanların deportasiyası üç mərhələdə aparılıb:

Birinci mərhələ 1905–1920-ci illər;

İkinci mərhələ 1948–1953-ci illər;

Üçüncü mərhələ 1988–1992-ci illər.

Bu proseslər zamanı ermənilər Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların yüzlərlə yaşayış məntəqəsini yerlə-yeksan edərək 30 minə yaxın evi dağıdıb və yandırıb. Qocalar, uşaqlar və qadınlar da daxil olmaqla 140 mindən çox şəxs vəhşicəsinə qətlə yetirilib, 750 mindən artıq azərbaycanlı Qərbi Azərbaycandan didərgin salınıb. Sonuncu deportasiyada 1988-ci ildə isə 300 minə yaxın azərbaycanlı erməni vəhşiliyinə tab gətirə bilmədiyindən doğma yurd-yuvalarını tərk etməyə məcbur olub.

Qərbi Azərbaycandan azərbaycanlıların izini itirmək məqsədilə buradakı qəbiristanlıqları, tarixi mədəni abidələri, dini müəssisələri, məktəb, xəstəxana və digər binaları darmadağın edib. Təkcə 1988-ci ildən sonra Qərbi Azərbaycanda ermənilər azərbaycanlılara məxsus 2000-dən artıq qəbiristanlığı dağıdıb. Təəssüflər olsun ki, bu faktlar dünya ictimaiyyətindən gizlədilib, günahkarlar cəzasız qalıb.

Azərbaycanlıların Ermənistandan kütləvi deportasiyası əsasən 1948–1953-cü illərdə Stalinin göstərişi ilə həyata keçirilib. Əgər krım tatarları, çeçenlər və digər xalqlar almanlarla əməkdaşlığa görə cəzalandırılıb köçürülmüşdülərsə, azərbaycanlıların köçürülməsinə yeganə səbəb onların türk olması idi.

Köçürülmə zamanı diqqət çəkən məqam bütün gerçəkləri göz önünə sərir. Məsələn, əgər digər repressiyaya məruz qalan xalqlar yaşadıqları bütün torpaqlardan deportasiya olunurdusa, yalnız azərbaycanlılar Ermənistandan köçürülürdü. Bu köçürülməni həyata keçirənlərin məqsədi, məramı qısa zaman kəsiyində Ermənistanın etnik baxımdan "təmizlənməsi" idi.

Ermənistanın dövlət kimi tarixi Azərbaycan torpaqlarında yaradılması Azərbaycanı böyük bir coğrafiyadan, daha doğrusu türk dünyasından təcrid etməyə hesablanmışdı. Rusların özlərinin belə sonradan sahib olduqları torpaqların əsl sahiblərinin türklər olması onların gələcək planlarını həyata keçirə bilməmək qorxusu ilə üzbəüz qoyurdu. Sovetlər ölkəsinin başında duranlar yaxşı bilirdi ki, Turana gedən yola doğru yürüyənlərin fikir babaları Azərbaycandadır. Odur ki, gizli və aşkar şəkildə qərara alınmışdı ki, indiki Ermənistan ərazisində olan bütün toponimlərin də adı dəyişdirilsin. Ruslaşdırılsın, ya da haylaşdırılsın. Həmin illərdə SSRİ Nazirlər Kabinetinin çoxlu sayda sərəncamları ilə 2 mindən çox tarixi ad dəyişdirildi. Lakin Ermənistanın "türklərdən" tam təmizlənməsinə sovet dövrü yetmədi.

Sonuncu deportasiyadan sonra Ermənistanın məsul işçilərindən biri olan Manuk Vardanyanın sözlərinə görə ölkədəki bütün türk mənşəli sözlərin dəyişdirilməsi 2007-ci ilə qədər çəkib…

Azərbaycanlıların tarixi torpaqlarımızdan, öz dədə-baba yurdlarından deportasiyası ilə bağlı tarixi həqiqətlərin dünyaya çatdırılması istiqamətində mühüm addımlar atılır.

Qərbi Azərbaycan İcmasının yaradılması yurda dönüş ümidi ilə yaşayanları daha da ruhlandırıb.

Məhz Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2022-ci ilin 24 dekabr tarixində Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olduqdan sonra Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşərkən tarixi torpaqlarımıza dönüşü zərurət adlandırması, bu tarixi dönüşün bizim haqqımız olduğunu dilə gətirməsi qarşıya qoyulan hədəflərə doğru daha ciddi addımların atılacağından xəbər verir.

Odur ki, hər birimiz üçrəngli bayrağımızın tarixi torpaqlarımızda dalğalanması, yenidən o yurdlarda ocağımızın qalanmasını istəyiriksə, Vətəni suverenliyinə qovuşduran həmrəyliyimizi qorumalı, gerçək həqiqətləri dünyaya çatdırmaqda israrlı olmalıyıq.

*Hazırladı: Aytən Tahirova*

# Əməkdaşların nəzərinə!

## Magistr təhsili almaq istəyənlər müraciət edə bilərlər

**Azərbaycan Respublikası DİN-in Polis Akademiyası dövlət hesabına 2 illik əyani təhsil əsasında hüquqşünaslıq ixtisasının "Cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası" ixtisaslaşması üzrə magistraturaya qəbul elan edir.**

Əməkdaşların sənədlərinin qəbulu və tədris işlərinin tərtibatı onların xidmət yeri üzrə həyata keçirilir. Akademiyanın magistraturasına qəbul olunmaq istəyən əməkdaş 2025-ci ilin fevral ayının 16-dək əsaslandırılmış raportla Azərbaycan Respublikasının daxili işlər nazirinə müraciət edir.

Raporta aşağıdakı sənədlər əlavə edilir:

- şəxsiyyət vəsiqəsinin surəti;
- ali təhsil haqqında sənəd və ona əlavənin notarial qaydada təsdiq edilmiş surəti;
- xarici ölkələrdə ali təhsil almış şəxslərə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən verilən xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasını təsdiq edən sənədləri (notarial qaydada təsdiq edilmiş Azərbaycan dilinə tərcüməsi).

Əməkdaşın xidmət keçdiyi orqanda onun raportu əsasında tədris işi tərtib edilir. Tədris işinə əməkdaşın təhsil haqqında sənədlərinin əsli, xidməti xasiyyətnaməsi, kadrların uçotunun şəxsi vərəqəsi (anket), əməliyyat-sorğu uçotları üzrə yenilənmiş yoxlama tələbnamələri üzrə məlumat əlavə edilməklə Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərilir.

Daxili işlər orqanları əməkdaşlarının Akademiyaya qəbulu müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak ödənişsizdir. Daxili işlər orqanları əməkdaşlarının Akademiyanın magistraturasına qəbulu üzrə müsabiqə Polis Akademiyasında informasiya-kommunikasiya texnologiyaları vasitəsilə test üsulu ilə keçirilən qəbul imtahanından ibarətdir.

Magistraturaya qəbul imtahanı üzrə iki cəhdin keçirilməsi nəzərdə tutulur. Qeydiyyatdan keçmiş namizədlər öz istəklərinə uyğun olaraq həmin imtahanların birində və ya hər ikisində iştirak edə bilərlər. Magistratura pilləsinə qəbul zamanı ixtisas müsabiqəsində iştirak üçün qəbul üzrə verilən birinci və ikinci cəhd imtahanları arasında ən yüksək nəticə seçilir.

Magistraturaya qəbul imtahanı üzrə birinci cəhd 2025-ci ilin fevral ayında, ikinci cəhd may ayında keçiriləcəkdir.

İmtahanda bakalavrlara məntiqi təfəkkürün yoxlanılması üzrə 50, informatika üzrə 25 test tapşırığı təqdim olunacaq. Xarici dil üzrə test blokunda isə 20 test tapşırığı təqdim ediləcək, həmçinin bakalavrlar xarici dil üzrə yazı işi (esse) yazacaqlar. Xarici dil üzrə imtahan blokunda edilmiş dəyişikliklər nəzərə alınaraq imtahan müddətinə 30 dəqiqə əlavə olunmuşdur, yəni ümumi imtahan müddəti 3 saat 30 dəqiqə olacaq. Test tapşırıqlarını cavablandırmağa 3 saat, esseni yerinə yetirmək üçün isə 30 dəqiqə vaxt verilir. İmtahanın nəticələri üzrə qəbul yerlərinin sayına müvafiq olaraq minimal qəbul balından az olmamaq şərtilə ən yüksək bal toplayan 10 namizəd müsabiqədən müvəffəqiyyətlə keçmiş hesab olunur və Akademiyanın magistratura pilləsinə qəbul edilirlər.

**Daha ətraflı məlumatı DİN-in Baş Kadrlar İdarəsinin (012) 590-97-76, 17-76 (daxili), DİN-in Polis Akademiyasının 8880 qaynar xətt, (012) 454-34-57, 554-99-84 nömrəli telefonları vasitəsi ilə və ya https://www.pa.edu.az/ internet saytından əldə edə bilərsiniz.**


2025-ci ilin I yarısı üçün "POLİS"ə, öz qəzetinizə abunə olmağa tələsin!

# "Yol Polisimlə bir gün"ün töhfəsi

## Məqsəd yol hərəkəti mədəniyyətini formalaşdırmaqdır

Baş Dövlət Yol Polisi İdarəsinin uşaq və yeniyetmələr arasında yol hərəkəti təhlükəsizliyinin təbliği məqsədi ilə həyata keçirdiyi "Yol Polisimlə bir gün" layihəsi çərçivəsində məktəblilər bu dəfə Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzində qonaq olub.

Tədbir zamanı şagirdlərə nəqliyyatın intellektual idarə edilməsi sistemi, yol hərəkətinin tənzimlənməsi və müasir texnologiyaların tətbiqi haqqında ətraflı məlumat verilib. Məktəblilər real vaxt rejimində yollardakı vəziyyətin necə izlənildiyini, tıxacların idarə olunmasını və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi üçün istifadə olunan innovativ həlləri maraqla izləyiblər.

Bununla yanaşı, yol hərəkəti qaydalarının əhəmiyyəti, piyada və sürücülərin məsuliyyəti, eləcə də təhlükəsizlik qaydalarına riayət etməyin vacibliyi barədə görüş iştirakçılarına ətraflı məlumat verilib. Şagirdlər, həmçinin polis və nəqliyyat mütəxəssisləri ilə interaktiv söhbətlər apararaq onları maraqlandıran suallara cavab alıblar.

Bu cür maarifləndirici tədbirlər məktəblilərdə yol hərəkəti mədəniyyətini formalaşdırmaq, onların təhlükəsizlik qaydalarına əməl etməyə təşviq etmək və hüquq-mühafizə orqanlarına inam hissini gücləndirmək baxımından mühüm əhəmiyyət daşıyır.

# Turnir ulu öndərə həsr olunub

## Komandamız növbəti mərhələyə adlayıb

Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr



olunmuş dövlət qurumları arasında III mini futbol turniri davam edir. Yarışda gücünü sınayan DİN-in komandası ötən müddət ərzində keçirdiyi səkkiz görüşdən altısında qalib olub, ikisində heç-heçə edib.

Rəqiblərinə böyük hesabla qalib gələn komandamız növbəti mərhələyə adlayıb.

Qeyd edək ki, turnirə may ayında yekun vurulacaq.

# Müdriklərin söz xəzinəsi

## İncəsənət təbiətin bir parçasıdır

Yalanlamaq və rədd etmək üçün oxuma! İnanmaq və hər şeyi qəbul etmək üçün də oxuma! Danışmaq və nitq söyləmək üçün də oxuma! Ölçüb-biçmək, müqayisə etmək və düşünmək üçün oxu!

❖❖❖

Əgər bir insan bir işə qəti olaraq, mən bilirəm iddiası ilə başlayarsa, şübhə ilə son tapar. Lakin əgər o şübhə ilə başlamağa razı olsa, sonda həqiqəti tapacaq.

❖❖❖

Bizi güclü edən yediklərimiz yox, həzm etdiklərimizdir. Bizi varlı edən qazandıqlarımız yox, mühafizə etdiklərimizdir. Bizi bilgili edən oxuduqlarımız yox, başımıza yerləşdirdiklərimizdir.

❖❖❖

Suyu düşünmək susuzluğu yox etmir. Odun və yanğını düşünmək isə sizi isitmir. Eyni şəkildə uğuru düşünmək də sizə uğur gətirmir. Bir şeyi əldə etmək üçün hərəkətə keçməlisiniz.

❖❖❖

Ağıllı adam tapdığından daha artıq fürsət yaradan adamdır.

❖❖❖

Sınayın, sınayın, sınamadan heç bir şeyə inanmayın.

❖❖❖

Kitablar yaşlı insanların ən yaxşı yoldaşı, cavanların isə ən yaxşı yolgöstərənidir.

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11257

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik